# İKİ ŞAH, İKİ SULTAN

## (romandan parçalar)

(Əvvəli ötən saylarımızda)

*İkinci dəfə idi ki, Uzun Həsən olum və ölüm arasında qalmışdı. Üzərinə gələn qoşunun başında oğulu Yadigar Mirzənin dayandığından xəbərdar idi. Başa düşürdü ki, istəsə də, istəməsə də bu savaş çox ağır qanla nəticələnəcək. Çünki Yadigar Mirzə birbaşa Osmanlıların fitvası ilə onun üzərinə gəlməkdə idi. Bəlkə də, neçə dəfə qocalıb əldən düşmüş anasını hadisələrin mərkəzinə çəkmək oğlu Yadigar Mirzə ilə necə davranmağın təhərini ondan soruşmaq istəyirdi ki, bu xəyanətkar oğula qarşı ədalətli münasibət olsun. O, yaxşı başa düşürdü ki, Qaraqoyunlulardan sonra böyük əraziləri öz idarəsinə almış Ağqoyunlular səltənətinin möhtəşəmlik qorxusu bütün Avropanı titrətmə içində saxlayırdı. Əslində, Avropa nə dərəcədə Ağqoyunlulardan qorxurdusa, bir o qədər də Osmanlılardan çəkinirdi. Dünya siyasətinin mərkəzi idarəsi əslində, Avropanın əlinə keçmişdi. Roma Papası öz iqamətgahını Şərqin və Qərbin siyasətinə təsir edə biləcək mərkəz gücündə saxlayır. Və elə buradan da Avropa dövlətlərinə göstərişlər verir, müxtəlif yollarla Şərq ölkələrini yerindən oynadır. Onları bir-birinin üzərinə qaldırmağa çalışırdı.*

*Zaman isə sürətlə öz axarında idi. Hadisələrin belə sürətlə dəyişməsi Ağqoyunlular səltənətinin mərkəzi iqamətgahında bir qədər çaşqınlıq yaratmışdı. İndi əsas məsələ bu çaşqınlıqdan çıxmaq idi ki, hələ ki, bunu da Uzun Həsən tək başına bacarmırdı. Ona görə yox ki, nədənsə qorxurdu, yaxud təcrübəsi çatmırdı. Xeyir, məsələnin kökü bu amillərlə bağlı deyildi. O, bütün gücü ilə, iradəsi ilə elə bir yol seçmək istəyirdi ki, səltənətin öz içində parçalanma baş verməsin. Bu yolda bir birinin arxasınca oğullarını itirsə də, onun üçün əsas ölkənin birliyi, təhlükəsizliyi idi.*

*Necə deyərlər, sən öz saydığında ol, axı taleyin də öz gərdişi var. Ömrünün son illərini yaşamaqda olan Sara xatun bu hadisələri az-çox öyrənə bildiyi məlumatlarla izləyirdi. İndi onun oğlu ilə nəvələri arasındakı münaqişəni həll etmək gücü də yox idi. Çünki nəvələr artıq nəzarətdən çıxmışdılar.*



***Hüseynbala MİRƏLƏMOV***

Bir zaman aləmlərin anası adlandırılan Sara xatun Şərqin iki qüdrətli hökmdarı arasında ağlı və düşüncəsi ilə ünsiyyət körpüsü qura bilmişdi. Az qala on ildən bir az da artıq olan zaman onun düşüncəsində təzədən baş qaldırmış, xatirələr yaddaşında oyanmışdı. Bu, o zaman idi ki, hələ Uzun Həsənin oğlanları, yəni Sara xatunun nəvələri çox gənc idilər. Hələ döyüş sənətini öyrənmək üçün çalışırdılar. Qonşu əyalətlərlə də Ağqoyunluların haqq-hesabı başa çatmamış bu məsələlər axıracan aydın olmamışdı. Bax, o zaman Uzun Həsən başını iki əli arasında sıxmış, gözlərini yerə dikmiş və ağır düşüncələrə qərq olmuşdu. Və bunu da Sara xatun görürdü. Hadisələrin gedişatını Osmanlı hakimi II Mehmetin niyyətlərini yaxşı başa düşən Sara xatun birbaşa oğluna təklif eləmişdi ki, II Mehmetlə görüşə bilər. Və bu görüşlə onun düşüncəsində müəyyən dəyişiklik də yarada bilər. Doğrudur, Sara xatun bilirdi ki, nə vaxtsa, Osmanlılar və Ağqoyunlular arasında qanlı bir döyüş ola bilər. İndiki halda əsas olan bu idi ki, bu savaşın baş vermə tarixini dəyişdirmək mümkün olsun. Yəni hələ Ağqoyunluların başının üstünü kəsdirmiş daha vacib çətinlikləri var idi. Bunun üçün vaxt gərək idi. Bu vaxtı isə Sara xatun Mehmetdən qopara bilmək inamında idi. Baxmayaraq ki, Mehmet Əbu Səid və qeyrisi deyildi. Hər halda Mehmet onu da bilirdi ki, Ağqoyunlular asanlıqla döyüş meydanında məğlub ediləcək qüvvə də deyil. Və Sara xatun da elə bu qüvvəyə güvənirdi.

Osmanlılarla Ağqoyunlular arasında ilk uğurlu bir sülh, tarixin qardaşlıq səhifəsində pozulmaz bir yaddaş kimi qalır. Ərzincan tərəflərdə Yassıçəmən deyilən bir ərazi var idi. Sultan II Mehmet də öz ordugahını burada qurmuş və gələcək planlarını necə həyata keçirmək üçün yollar axtarır. Qarşıda isə Trabzonun taleyinin həll edilməsi çox vacib tarixi-siyasi hadisə kimi onu düşündürürdü.

Bir sözlə, Sara xatun yenə oğlundan II Mehmetin yanına getmək üçün izin istədi. Hər halda hakim Uzun Həsən idi. Uzun Həsənin hakimiyyət ehtirası onun özünün ixtiyarında olan məsələni başqasına yox, ancaq anasına güzəştə gedə bilərdi. Beləliklə, qiymətli hədiyyələrlə Sara xatunun karvanı XV əsrin 60-cı illərinin əvvəlində üzü Ərzincana doğru II Mehmetin iqamətgahına yola düşdü.

II Mehmetə xəbər verəndə ki Ağqoyunlular hakiminin anası karvanla ona qonaq gəlir, bu xəbər Osmanlı hakimini sevindirdi. Çünki məsələnin məğzi ona göydə agah olmuşdu. O, Trabzon hakiminin üzərinə yürüş etmək planı qurmuşdu. Ancaq Uzun Həsəndən ehtiyat edirdi. Axı Trabzon hakimi Uzun Həsənin qayınatası idi. Əgər o, Trabzon hakiminin üzərinə hücuma keçərdisə, bilmək olmazdı, bəlkə də, Uzun Həsən ona arxadan çox dəhşətli bir zərbə vurardı. Osmanlı hakimi iki cəbhədə vuruşmağın çətinliyini yaxşı dərk edirdi. Bilirdi ki, iki od arasındakı çarpışmada düşmən qüvvələr onu elə əzə bilərdi ki, bir daha öz qüvvələrini bərpa edə bilməzdi.

Sara xatunun qəfil gəlişi göydəndüşmə oldu.

Osmanlı hakimi Sara xatunu çox böyük hörmət və nəvazişlə qarşıladı. Ona «ana» deyə müraciət etdiyindən Sara xatun da Osmanlı hakiminin «ana» sözünün müqabilində ona «oğul» deyə müraciət elədi.

Birinci Sultan II Mehmet söhbətə başladı:

- Aləmlərin anası bizim hüzurumuza gəlməkdə bizi çox şərəfləndirib.

- Oğul, Tanrı sizi şərəfləndirib, biz isə bu şərəfdən məmnunuq.

Sultan II Mehmet bu dünyagörmüş qadının tutarlı sözündən sonra məmnunluğunu bir az da açıqladı:

- Mən çox sevinirəm ki, iki qardaş arasında bir ananın sözü tam anlaşılandı, başa düşüləndi.

Sara xatun həmin andaca dilləndi:

- Mənim ömrümdən nə qalıb, nə qalmayıb bu, Allahın işidir, ancaq mən istəyirəm ki, bu dünyadan gedəndə, tam ümidli olum ki, iki qardaş arasında həmişə anlaşma olacaq. Hər kəs Allahdan ayrılmış paya qane olacaq. İnsanlar da hökmdarların arasındakı yaxşı münasibətdən fayda görəcək. Qarşılıqlı münasibətlər hər iki ölkənin çiçəklənməsinə xidmət edəcək.

- Mən də belə düşünürəm. Xüsusilə, Sara xatun kimi anamızın arada olmağı gərək bizim hər birimiz üçün ən etibarlı bir müqavilə oslun.

Hiss olundu ki, bu sözlər Sara xatuna çox xoş təsir elədi. Əslində, elə bura o məqsədlə gəlmişdi ki, II Mehmetlə Uzun Həsən arasında sülh yaransın. Onlar birbirinin üzərinə hücuma keçməsin.

Sultan II Mehmetin yanındaca taxta əyləşmiş Sara xatuna Osmanlı dövləti adından çoxlu hədiyyələr verildi. Və onun da hədiyyələri çox hörmətlə qəbul edildi. Osmanlı divanının ən hörmətli adamları ilə birgə möhtəşəm ziyafət verildi. Qədimdən bəri Şərqdə olan çörək müqəddəsliyi də dillərdə car oldu. Və II Mehmet arada fürsət tapan kimi dilləndi:

- Bizim dilimiz, qanımız birdi. Uzun illərdən bəri türklər çörək kəsdiyi adamlara həmişə sədaqətli olublar. Çörəyin müqəddəsliyini bütün mənafelərdən uca tutmuşuq. Yəqin ki, bundan sonra da belə olacaq.

Sultan Mehmetin bu həyəcanlı sözlərindən sonra Sara xatun cavab verdi:

- Allah süfrənizin bərəkətini bol eləsin. İnanıram ki, bu duz-çörək müqəddəsliyini qorumaq Allaha da xoş gedəcək. Uca Yaradan sizin hər birinizi bəlalardan hifz edəcək, təki bir-birinizə dayaq olun. Əlbəttə, Sara xatun bu sözləri deyəndə, oğlu Uzun Həsənlə II Mehmeti nəzərdə tuturdu.

Yer-yerdən «amin» sədaları qopdu. II Mehmet ayağa qalxıb Sara xatunun sağ əlini üç dəfə öpüb göz üstünə çəkdi.

Sara xatun bu ehtiramdan çox mütəəssir oldu. Və elə həmin gün ziyafətdən sonra Sara xatun geriyə qayıtmaq üçün hazırlıq görməli oldu. Amma II Mehmet onun yola düşməsinə icazə vermədi:

- Yox, anamız uzun yol gəlib, o, hələ bir müddət burada qalıb dincələr. Sonra biz özümüz çox böyük hörmət və ehtiramla öz ölkəsinə yola salarıq.

Sara xatun səhəri gün söhbət əsnasında hiss etdi ki, Sultan II Mehmet Trabzon hökmdarının üzərinə yürüşə hazırlaşır. O, Sultanı fikrindən danışdırmaq üçün mehribanlıqla buyurdu:

- Sultan bilir ki, Trabzon hökmdarı Uzun Həsənin qayınatasıdır. Əgər Sultan II Mehmet onun üzərinə hücuma keçsə, bu Uzun Həsənin xətrinə dəyməzmi?

- Yox, gərək bizim əməlimiz Uzun Həsənin xətrinə dəyməsin, çünki Trabzon hakimiyyətinin taleyini artıq zaman verib.

Sara xatun indi başa düşdü ki, Sultan II Mehmet nə üçün onun gəlişindən məmnundur. Və onu da anladı ki, Sultan nəyə görə geri qayıtmasına icazə vermir. Deməк, səbəb bu imiş ki, bir növ Sara xatunu əldə girov saxlasın. Uzun Həsənin Osmanlılar üzərinə yürüşünün qarşısını alsın. Bir ananı girov saxlamaqla, oğulun əl-qolunu bağlamaq imiş məqsədi.

Sara xatun bildi ki, daha Trabzon hakiminin taleyi həll olunub. Yaranmış şəraitə görə vəziyyətdən necə istifadə etmək olardı? Bunun bircə yolu vardı. O, II Mehmetə bildirsin ki, Trabzon hakimi ilə qohumluq Uzun Həsənə də haqq verir ki, onun varidatının, heç olmasa, yarısına iddia eləsin.

Növbəti həftə Sultan II Mehmet Trabzon hakiminin üzərinə hücuma keçdi.

Uzun əsrlər boyu nəhəng Trabzon az qala Şərqə və Qərbə basılmaz bir qala kimi görünürdü. Amma indi çiçəklənməkdə olan Sultan II Mehmetin dövlətinin gücü qabağında aciz idi. Ona görə də Osmanlıların çevik qüvvələrin Trabzon hakimi ilə savaşa çox da vaxt sərf eləmədi. Savaş o qədər sürətlə başlandı və başa çatdı ki, Qərb ölkələri də Trabzonu müdafiə etmək üçün heç olmasa, hədə-qorxu məktublarını belə göndərməyə vaxt tapa bilmədilər. Trabzonun saysız-hesabsız sərvəti Osmanlıların əlinə keçdi. Ancaq hər halda o Sara xatunla olan anlaşmaya hörmət əlaməti olaraq bu sərvətin xeyli hissəsini pay kimi Uzun Həsənə ayırdı. Döyüşdən sonra qənimətin yığışdırılıb hesaba alınması da bir müddət vaxt apardı.

Hər şey aydın idi. Sultan II Mehmet Ağqoyunlular səltənətinə çatacaq sərvəti bir karvana düzənlədi. Sultan sarayından geri dönən Sara xatun beləcə bir müddət iki qardaş arasında qüvvədə olan sülhün əsasını qoydu. Hər halda Ağqoyunlular üçün Yassıçəmən sülhünün çox böyük faydası var idi.

Hadisələr isə zaman axarında təzə küləklər gətirməkdə davam edirdi.

Beləcə aradan ötmüş illər hər iki dövlətin özünü toparlamasına şərait yaratdı. Pis o idi ki, Ağqoyunluların siyasi mühitində baş verən olaylar Uzun Həsənin şəxsi faciəsinə çevrilirdi. İndi isə ancaq olanları yaddaşına gətirən Sara xatun bu hadisədən çox təəssüflənirdi. Çünki oğlu Uzun Həsənlə nəvəsi Yadigar Mirzə döyüş meydanında qarşı-qarşıya gələcəkdi.

*(Davamı var)*